# 2018-ci il, birinci rüb: Qəbələdə bütün sahələrdə uğurlu inkişaf var

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

(Əvvəli 5-ci səhifədə).

sas təhsili və təlimi ciddi islahat mərhələsindədir.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin regiondakı fəaliyyət imkanlarından regiondakı QHT-lər faydalanmışlar. Mərkəzlə 2018-ci ilin 3 ayı ərzində 22 milli QHT əməkdaşlıq edərək vətəndaş cəmiyyətinin inkişafına xidmət edən layihələr həyata keçirmişlər.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinə ilin ötən dövrü ərzində müraciət edən 57 nəfərə müxtəlif növ xidmətlər göstərilmiş, təlim və dərnəklərdən 436 nəfər bəhrələnmişdir.

Mərkəz tərəfindən rüb ərzində 29 ailəyə səfər edilmiş, 12 ailənin problemi həll olunmuş, 6 maarifləndirici tədbir və təlim keçirilmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Ölkə prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etdiyi kimi son illər aqrar sahənin inkişafına dövlət qayğısının artması nəticəsində bu sahədə xeyli irəliləyiş nəzərə çarpır. Bu sahədə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi vəsaiti hesabına yardımların verilməsini nəzərdə tutulan Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Cənab Prezidentin həmin sərəncamı kənd təsərrüfatı məhsulları istehsalçılarında böyük stimul yaratmışdır. Bunun nəticəsidir ki, rayonumuzun kənd təsərrüfatı sahəsində də əhəmiyyətli dəyişikliklər hiss edilir.

Sərəncamın rayonda icrası ilə əlaqədar olaraq cari ilin may ayından etibarən kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına yardımların hesablanmasına başlanılacaqdır. Artıq kənd komissiyalarına subsidiyanın alınması üçün lazım olan formalar kənd təsərrüfatı idarəsi tərəfindən verilir.

Güzəştli qaydalarla 686 nəfər 1412 ton gübrə və 3292 litr pestisidlə təmin olunmuşdur.

Torpaq sahibləri tərəfindən 2018-ci ilin mart ayının üçüncü ongünlüyündə yazlıq bitkilər əkininə başlanmış və aprel ayının əvvəlinə cəmi 959,6 hektar yazlıq bitkilər, o cümlədən 131 hektar sahədə kartof, 50 hektar sahədə tərəvəz, 175 hektar sahədə yonca, 45 hektar sahədə şəkər çuğunduru, 40 hektar sahədə qarğıdalı və 548,6 hektar sahədə dənli paxlalılar və yaşıl yem bitkisi əkilmişdir. Qeyd etmək lazımdır ki, son illər rayonun kənd təsərrüfatı bitkilərinin əkin quruluşunda xeyli dəyişiklik aparılıb. Belə ki, heyvandarlığın inkişafını nəzərə alaraq yemə olan tələbatının ödənməsi üçün taxıl sahələri 1500 hektara qədər azaldılmış və həmin sahələrdə yem bitkiləri əkilmişdir. Əsasən yonca, vələmir yem noxudu və yem çuğunduru əkinlərinə diqqət artırılmışdır. Yazlıq bitkilərin əkini davam etdirilir.

Aqrar sahədə çalışan fermerlərimiz mütərəqqi metodlar tətbiq edərək əkin sahələrinin genişləndirilməsinə deyil, məhsuldarlığın artırılmasına diqqəti artırmışlar.

Rayon üçün bağçılıq da önəmli sahələrdən hesab edilir. Hazırda rayonda 6854 hektar bağ sahələri, 509 hektar üzüm plantasiyaları mövcuddur. Həm əhalinin həmin məhsullara olan tələbatının ödənilməsi istiqamətində, həm də rayonda bu sahələrin məhsullarını emal edən sənaye müəssisələrinin xammala olan tələbatının ödənməsi baxımından meyvə və üzüm sahələrinin genişlənməsinə və məhsuldarlığın yüksəldilməsinə diqqət artırılmalıdır.

Cənab İlham Əliyevin qeyd etdiyi kimi indi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. İxrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

Bu baxımdan fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda bu ilin üç ayında 120 hektar yeni fındıq bağları salınmışdır. Keçən ildə uzun fasilədən sonra rayonumuzda barama və tütün istehsalına başlanılmışdır. Keçən il 2758 kq barama istehsal edilərək təhvil verilmişdir. Cari ildə barama istehsalının artırılması məqsədi ilə 2016-cı ilin payızından etibarən rayonda 170.000 tut tingi əkilmişdir ki, bu da gələcəkdə bizə barama istehsalının artırılmasına şərait yaradacaqdır. Barama istehsalının artması ilə əlaqədar rayonda barama qəbulu və qurutmaxanası məntəqəsinin yaradılmasına zərurət yaranacaqdır.

Cari ildə 75 ha sahədə tütün əkilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə 2400 kvadrat metr isti şitillik salınmışdır. Hazırda parniklərdə şitillərə qulluq işləri aparılır. Tütün əkiləcək sahə (75 ha) şumlanıb hazır vəziyyətə gətirilmişdir. Gələcəkdə rayonda tütün istehsalının artırılması ilə əlaqədar olaraq tütün qurutma kameraları və tütün qəbulu məntəqəsinin yaradılması nəzərdə tutulmuşdur.

Tingçiklik təsərrüfatında kı 4 hektar alma bağında ağaclara qulluq edilmiş, 8 hektar fındıq bağında isə budama işləri aparılmışdır.

2018-ci ilin birinci rübündə dövlət meşə fondu torpaqlarının 32,3 ha ərazisində aqromeşə massivləri, meyvə bağları salınmışdır ki, bunun da 15,5 hektarını fındıq, 7,3 hektarını şabalıd, 8,7 hektarını qoz və 0,8 hektarını alma bağları təşkil edir.

Hazırda rayonda 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir və onlarda kifayət qədər kənd təsərrüfatı texnikası mövcuddur. Bundan əlavə 416 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayonda 81 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı və 399 ədəd təkərli traktor, 24 ədəd buldozer, 47 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı da daim təzələnir.

Birinci rübdə rayon üzrə iri buynuzlu mal-qaranın baş sayı 46343 baş, o cümlədən inək və camışların sayı 23055 baş, qoyun və keçilərin sayı 191215 baş, donuzların sayı 1123 baş olmuşdur. Keçən ilin eyni dövrünə nisbətən ət istehsalı (diri çəkidə) 7 ton çox və ya 1343 ton, süd istehsalı 351 ton çox və ya 8286 ton, yumurta istehsalı 2100 min ədəd çox və ya 5234 min ədəd olmuşdur.

Rayonumuzda 2 müasir heyvandarlıq kompleksi və 4 ədəd kiçik həcimli heyvandarlıq təsərrüfatı fəaliyyətə başladıqdan sonra sakinlərin ətə və südə olan tələbatının ödənməsində ciddi müsbət dəyişikliklər baş vermişdir. Həm sanitariya-gigiyena nöqteyi nəzərindən, həm də baytarlıq nəzarətinin təmini üçün mərkəzləşdirilmiş ət kəsimi məntəqəsinin yaradılması nəzərdə tutulmuşdur.

Rayonda mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 8 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Cari ilin birinci rübündə süni mayalama mütəxəssisləri tərəfindən 2263 baş inək və düyələrdə süni mayalama aparılmış və keçən ilin ikinci rübündə süni mayalanmış heyvanlardan 1130 baş yüksək genetik potensiala malik buzovlar alınmışdır. 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova dövlət büdcəsinin vəsaiti hesabına subsidiya verilir. 2018-ci ilin 3 ayında 737 baş süni mayalanmadan alınmış buzovlara subsidiya hesablanmışdır. Bu iş mütəmadi olaraq hər ay davam etdirilir. Ona görə də vətəndaşlar heyvanların mayalandırılmasında süni mayalamaya üstünlük verirlər. Nəticədə mal-qaranın cins tərkibi tədricən yaxşılaşır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizootik durum demək olar ki, sabitdir.

Qəbələ qızılbalıqartırma zavodunda 2018-ci il üçün təbii su hövzələrinə, Xəzər dənizinə və Kür şayına 58750 ədəd kür qızıl balığı körpələrinin buraxılması nəzərdə tutulmuşdur. Bunun üçün 100.000 ədəd kürü alınmış və hazırda kürüdən çıxan balıq sürfələrinin yetişdirilməsi həyata keçirilir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2018-ci ilin birinci rübündə rayon icra hakimiyyətində vətəndaşların bütün müraciətlərinə baxılması təmin edilmişdir.

Cari ilin birinci rübü ərzində rayon icra hakimiyyətinə ümumilikdə 223 ərizə daxil olmuşdur. O cümlədən 122 ərizə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 7 ərizə Milli Məclisdən, 4 ərizə Nazirlər Kabinetindən, 15 ərizə mərkəzi icra hakimiyyəti orqanlarından, 75 ərizə isə vətəndaşlardan daxil olmuşdur.

Vətəndaşlar tərəfindən göndərilən ərizələrin məzmunu əsasən onların mənzillə təmin olunması və təmir edilməsi, müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımının təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlməsi və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavablar verilmişdir.

2018-ci ilin birinci rübündə vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, rüb ərzində 221 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də 2018-ci ilin ötən dövrü ərzində rayon icra hakimiyyəti başçısının 8 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 750 nəfər iştirak etmişdir. Onlardan 52 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

İrəli sürülən təkliflərin və müraciətlərin 40-ı həll edilmiş, 10 məsələnin həlli ilə bağlı müvafiq izahat verilmiş, digər 2 məsələnin həlli istiqamətində respublikanın əlaqədar təşkilatlar qarşısında məsələ qaldırılmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalrının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, artezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli yığıncaq iştirakçıları!**

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində qarşıda duran vəzifələrdən danışan Prezident cənab İlham Əliyev bir çox önəmli layihələrin icrasının nəzərdə tutulduğu 2018-ci ildə ölkədə makroiqtisadi vəziyyətin sabitliyi ilə bağlı lazımi tədbirlərin görüləcəyini bildirmişdir.

Cənab İlham Əliyev qeyri-neft sektorunun inkişafının daim diqqət mərkəzində saxlanıldığını, sahibkarlara dövlət tərəfindən güzəştli kreditlərin verilməsinin davam etdiriləcəyini, yeni iş yerlərinin açılması üçün müvafiq işlərin görüləcəyini, özünəməşğulluq proqramının icrası məqsədilə lazımi tədbirlərin həyata keçiriləcəyini demişdir.

2018-ci ildə yeni mənzillərlə təmin ediləcək köçkünlərin sayının artırılacağını diqqətə çatdıran dövlət başçısı sosial infrastruktur layihələrinin icrasının davam etdiriləcəyini, bölgələrdə modul tipli məktəblərin quraşdırılacağını, tibb müəssisələrinin təmir olunacağını və inşasının həyata keçiriləcəyini, o cümlədən Qəbələdə yeni xəstəxana kompleksinin tikintisinə başlanıla-

(Ardı 7-ci səhifədə).